# Novruz bayramı ilə əlaqədar əhaliyə müraciət olunub

Fövqəladə Hallar Nazirliyi Novruz bayramı şənliklərində yanğın təhlükəsizliyinin qorunması ilə əlaqədar əhaliyə müraciət edib.



Müraciətdə hər birimiz üçün əziz olan Novruz bayramı ilə bağlı keçirilən müxtəlif mərasimlərdə yanğın təhlükəsi ilə üzləşməmək üçün bir sıra təhlükəsizlik qaydalarını bilməyin vacibliyi qeyd olunub.

Bildirilir ki, bayram tonqalının ətrafına yığışan azyaşlılar mütləq böyüklərin nəzarətində olmalıdır. Tonqal elektrik naqili, ağac, avtomobil, ev və digər yanar materiallardan kənarda yandırılmalı və tam sönənədək nəzarətdə saxlanılmalıdır. Tonqal üzərindən atılarkən ehtiyatsızlıq geyimin alışmasına, bədənin xəsarət almasına səbəb ola bilər. Evlərdə yandırılan şamlar nəzarətsiz qalmamalıdır.

Müraciətdə yanğın təhlükəsizliyi qaydalarına biganəliyin həyatımıza təhlükə olduğu diqqətə çatdırılır və yanğın təhlükəsi zamanı 112-yə zəng edilməsi tövsiyə olunur.

# Minnətdarlığımızı bildiririk

Rayonumuzun on min nəfərədək əhalisinin istifadə etdiyi və çoxdandır əsaslı tikintisini gözlədiyi 19 kilometrlik Böyük Əmili-Kiçik Əmili-Zalam-Yenikənd-Bılıx-Əmirvan yolunun çəkilişinə başlanılıb. Hazırda aparılan inşaat işləri ilə əlaqədar ekskavatorlar, buldozerlər, qreyderlər və ağır yük maşınları yola qum daşıyır, hamarlama işləri görülür.

Yol tikintisi Azərbaycan Avtomobil Yollarının Dövlət Agentliyi tərəfindən aparılır. İnşaatçılar bildirirlər ki, tikinti işlərinin tamamlanması və yolun vaxtında istifadəyə verilməsi üçün onlara rayon rəhbərliyi tərəfindən hər cür köməklik göstərilir.

Biz, həmin yoldan istifadə edən kəndlərin sakinləri bu xeyirxah işə göstərdiyi qayğıya görə ilk növbədə Prezident İlham Əliyevə və bu işdə əməyi olan hər bir kəsə öz dərin minnətdarlığımızı bildiririk.

**Mirzəbala YEDİYAROV,**
**Bılıx kəndi.**

# Müştəri xidmətləri təşkil olunub

“Nar” mobil operatoru tərəfindən paytaxtla yanaşı, regionlarda yaşayan sakinlərə göstərilən xidmət səviyyəsinin də yüksəldilməsi ilə bağlı müxtəlif tədbirlər həyata keçirilir.




Mobil operator bu günlərdə növbəti rəsmi mağazasını Qəbələdə təqdim edib. Şəhərin Heydər Əliyev prospektində yerləşən və müasir avadanlıqlarla təchiz edilən mağazada müştərilərə müxtəlif təkliflərlə xidmət göstərilir.

Burada nömrələr üzərində müxtəlif əməliyyatların həyata keçirilməsi, satışı, internet paketlərinin alışı, telefonların satışı, eyni zamanda, diler əməkdaşları tərəfindən digər yüksəkkeyfiyyətli müştəri xidmətləri təşkil olunub.

**“Qəbələ”**

# Günəş sisteminin ən uzaq nöqtəsinin fotoşəkilləri yayılıb

ABŞ-ın Milli Aeronavtika və Kosmik Tədqiqatlar Agentliyinin (NASA) “Yeni üfüqlər” (“New Horizons”) planetlərarası kosmik zondu Günəş sisteminin elmə məlum olan ən ucqar nöqtələrindən maraqlı fotoşəkillər göndərib. AZƏRTAC BBC-yə istinadla xəbər verir ki, kosmik zond “2014 MU69” asteroidinin səthinin fotoşəkilini çəkə bilib. Bu göy cismi Neptunun orbitindən də uzaqda yerləşir və “Ultima Thule” (“Dünyanın son nöqtəsi”) adlanır. Məlum olub ki, bu asteroid iki hissədən ibarətdir və görünüşü “qar adamı”nı xatırladır. NASA-dan bildiriblər ki, buz halında olan asteroidin yaxınlığından keçən zond işlək vəziyyətdədir. Bu aparat Yerdən kosmik fəzaya 12 il əvvəl göndərilib.

“Ultima Thule” Günəş sisteminin üçüncü qatını təşkil edən “Koyper” adlanan qurşaqda yerləşir. Birinci qurşağı daxili planetlər, ikincisini isə ətrafdakı nəhəng qaz kütlələri təşkil edir. Sözügedən asteroid dörd il əvvəl kəşf edilib və Günəş sisteminin ən az tanınan göy cisimlərindən biridir. Bu qurşaqda Günəşdən və səkkiz əsas planetdən maksimal uzaqlıqda yerləşən kiçik donmuş cisimlərin orbitləri yerləşir. “Koyper” qurşağında minlərlə donmuş cisim var və onların donmasının səbəbi 4,6 milyard il əvvəl Günəş sisteminin meydana gəlməsi şəraitini öyrənməyə kömək edəcək.



Zondun göndərdiyi məlumatdan aydın olur ki, “Ultima Thule” həddindən artıq qaranlıq asteroiddir və onun ən parlaq hissəsi Günəş işığının cəmi 13 faizini əks etdirir. Bu asteroid Yerdə günəşli gündə olduğundan 1900 dəfə az işıq saçır. Saatda 51 min kilometr sürətlə uçan zond onu qaranlıq bucaqda aşkar edib.

NASA-dan bildiriblər ki, kosmik zond topladığı informasiyanın cəmi 1 faizini Yerə göndərib. Tam məlumat isə 20 ay müddətində əldə olunacaq.

# Qəbələ-2500 yaşlı paytaxt şəhərimiz

***Respublika və bir sıra xarici ölkə mətbuatında rayonumuzun tarixi, bu günkü inkişaf tempi, əsrarəngiz təbiəti, turizm imkanları barədə müntəzəm olaraq yazılar verilir, televiziya ekranlarında video görüntülər yayımlanır.***

***AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitunun Qəbələ Arxeoloji Ekspedisiyasının rəhbəri tarix elmləri doktoru Qafar Cəbiyevin Azərbaycan qəzetinin 7 mart 2019-cu il tarixli nömrəsində «Qəbələ-2500 yaşlı paytaxt şəhərimiz» başlıqlı yazısı dərc olunub. Tariximizdən bəhs edən bu yazının oxucular üçün maraqlı olacağını nəzərə alaraq qəzetimizin bu sayında bir hissəsini dərc edirik.***

Miladdan əvvəl V-IV əsrlərdən başlayaraq əvvəlcə ölkənin iqtisadi və mədəni həyatında, daha sonra isə həm də siyasi həyatında çox mühüm rol oynayan, eramızın I əsrindən etibarən yazılı mənbələrdə adıçəkilən Qəbələ qədim Azərbaycan dövləti olan Albaniyanın ilk paytaxt şəhəri olub. Alban hökmdarlarının baş iqamətgahı orada yerləşib.

I əsr müəllifi Böyük Pilininin "Təbii tarix” əsərində "Kabalaka”, II əsr müəllifi Klavdi Ptolemeyin "Coğrafiya dərsliyi” əsərində "Xabala” kimi adı çəkilən Qəbələnin adı orta əsr mənbələrində də tez-tez xatırlanıb.

70 hektardan çox ərazini əhatə edən qədim Qəbələ şəhərinin qalıqları Qəbələ rayonunun Çuxur Qəbələ kəndi yaxınlığında yerləşir. Xatırladaq ki, qədim şəhər yeri Qala, Səlbir və Güllütala adı ilə bəlli olan üç əsas hissədən ibarətdir. Qaraçayla Qoçalan çayları arasında Antik Qəbələ adı ilə tanınan Güllütala ərazisində aparılmış uzunmüddətli arxeoloji və tədqiqatlar nəticəsində e. ə. IV əsrdən başlayaraq eramızın I əsrinin sonlarınadək intensiv şəhər həyatı olduğu sübuta yetirilmişdir. Şəhərin Səlbir adlanan hissəsində I-X əsrlərə, Qala ərazisində I-XVII əsrlərə aid bir neçə metr qalınlığında zəngin mədəni təbəqə olduğu müəyyən edilmişdir. Güllütala adlanan antik şəhər yerində həyat kəsildikdən sonra Səlbir və Qalada həyat başlanıb. X əsrdən etibarən isə şəhərin ancaq Qala hissəsində həyat davam edib.

1926-cı ildən başlayaraq Qəbələdə davamlı olaraq arxeoloji tədqiqatlar aparılır. 2009-cu ildən etibarən Azərbaycan arxeoloqları ilə yanaşı, Cənubi Koreya alimləri də Qəbələ tarixinin arxeoloji cəhətdən araşdırılmasında da bilavasitə iştirak edirlər. Çoxillik və genişmiqyaslı tədqiqatlar



nəticəsində qədim paytaxt şəhərinin tarixinin bir sıra çox mühüm istiqamətlərinə dair, o cümlədən Qəbələnin ən azı eramızdan əvvəl V əsrdən etibarən şəhər kimi mövcudluğunu təsdiqləyən zəngin tapıntılar əldə olunub. Bu tapıntılar Azərbaycanın qədim dövlətçilik tarixinin və şəhər mədəniyyəti ənənələrinin dərindən və hərtərəfli öyrənilməsi baxımından son dərəcə mühüm əhəmiyyət kəsb edir.

Qəbələnin yaşını və dövlətçilik tarixindəki yerini müəyyənləşdirmək baxımından Antik Qəbələ adı ilə tanınan ərazidə aparılan arxeoloji tədqiqatlar zamanı aşkar olunmuş bir neçə çox mühüm ictimai binanı xüsusi olaraq qeyd etmək istərdik. Bunlardan birincisi, ötən əsrin 60-70-ci illərində aşkar olunan və sahəsi 587 kvadratmetr olan ictimai binanın qalıqlarıdır. Bünövrə hissəsi çay daşı, divarları çiy kərpiclə hörülmüş bu binanın üstü iri ölçülü saxsı kirəmitlərlə örtülüb. Xatırladaq ki, iri ölçülü saxsı kirəmitlərlə örtülən belə nəhəng ictimai bina o dövr üçün nəinki Cənubi Qafqaz, bütövlükdə Avrasiya məkanı üçün nadir tikinti hesab olunurdu.

Sonralar Antik Qəbələdə tədqiqatlar davam etdirilərkən daha bir neçə möhtəşəm tikili də aşkar olundu. Qədim Yunanıstandakı ippodromları, Roma anfiteatrları və Misirin İskəndəriyyə şəhərindəki məktəb binalarını xatırladan üç ədəd oval formalı nəhəng tikinti xüsusi olaraq böyük maraq doğurur. Məlumat üçün bildirək ki, hələlik nə Qafqazda, nə də Yaxın və Orta Şərqdə antik dövrə aid bunlara bənzər tikili qalıqları tapılmamışdır.

Antik Qəbələnin alt mədəni təbəqəsi öyrənilərkən orada e.ə. IV-III əsrlərə aid çox nəhəng ərzaq anbarının qalıqları aşkar olunub. Anbarda 200 ədəddən çox irihəcmli təsərrüfat küpü sıra ilə boğaz hissəyə qədər yerə basdırılmışdır. Tədqiqatçıların fikrincə, həmin küplərdə əvvəlcə çaxır, daha sonra qoz, fındıq və taxıl saxlanılmışdır. Buradan da belə nəticə hasil olur ki, qəbələlilər indi olduğu kimi, 2500 il bundan əvvəl də taxılçılıq, heyvandarlıq, bağçılıq, üzümçülük və şərabçılıqla məşğul olmuşlar. Maraqlıdır ki, Cənubi Qafqazın digər yerlərində hələlik buna bənzər abidə aşkar edilməyib. Belə nəhəng ərzaq anbarının mövcudluğu, sözsüz ki, Qəbələnin hələ e.ə. IV əsrdə böyük şəhər olduğundan xəbər verir. Çünki belə ümumşəhər əhəmiyyətli nəhəng ərzaq anbarları yalnız və yalnız böyük şəhərlərdə ola bilərdi.

**(Ardı gələn sayımızda).**